*Vətən Müharibəsi qəhrəmanları*

# Gözəgörünməz xüsusi təyinatlı

**Xüsusi təyinatlı zabit Anar Əliyev hələ 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi uğrunda əks-hücum əməliyyatında iştirak edərək həmin məntəqənin düşməndən alınmasında fərqlənmiş, "Şücaətə görə" medalına layiq görülmüşdü. İkinci Qarabağ savaşında isə o, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavəndin azadlığı uğrunda döyüşlərdə mətinlik nümunəsi göstərdi və oktyabrın 21-də Tuğ kəndi istiqamətində gedən döyüşlərdə canını Vətənə qurban verdi.**



Kəlbəcərin Boyaqlı kəndində anadan olmuş Anar oraların ilk sakinlərindən sayılan Kalvavəllər nəslinin davamçılarından idi. Valideynlərinin işi ilə əlaqədar onların ailəsi Ağdərənin Göyarx kəndinə köçmüşdü. Amma erməni hücumları səbəbindən oradan Tərtərin Bəyimsarov kəndinə, oradan isə Şəmkirə üz tutmalı oldular.

Erməni nankorluğu, köçkünlük zülmü Anarın da qəlbində silinməz izlər buraxdığı üçün o, 9-cu sinfi bitirən kimi hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil oldu. Daha sonra Bakı Ali Birləşmiş Komandirlər Məktəbində oxudu, 2001-ci ildə ali hərbi məktəbi "Qoşun kəşfiyyatı" ixtisası üzrə bitirdi.

Məqamı yetişincə isə Silahlı Qüvvələrin Hərbi Akademiyasında təhsilini davam etdirdi.

Hərbi xidmətinin Naxçıvan dövründə vaxtından əvvəl polkovnik–leytenant rütbəsi alan Anar Əliyev həmişə gənclərə deyirdi ki, zabitlik əsl kişi işidir. Burada "gün keçirmək" deyilən şey yoxdur. Əgər çölçülüyə, bitmək bilməyən çətin sınaqlara gücünüz, təpəriniz, dözümünüz çatacaqsa, bu sahəyə gəlin. Özünün şəxsi nümunəsi ilə hər kəsdə hərbi işə sevgi və inam yaradırdı. Uğurla vəzifə pillələri üzrə yüksəlirdi. Türkiyə, Macarıstan, Çexiya, Rumıniya, Sloveniya, İordaniya və Pakistanda kurslarda, təlimlərdə, təcrübə mübadilələrində bacarığını göstərmişdi.

Yüksək peşəkarlığına görə Anar Əliyevə hərbi hissənin qərargah rəisi, komandiri vəzifələri etibar olunmuş, USTA dərəcəsi ilə dəyərləndirilmişdi...

Vətən müharibəsi başlanandan 13 gün sonra nəhayət, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu Komandanından Qarabağa göndərilmək barədə təkidli müraciətinə müsbət cavab alan polkovnik-leytenant Anar Əliyev ona hər qarışı canından da əziz olan torpaqlarımız uğrunda ölüm-dirim savaşına qatılıb. İlk qələbə sevincini 10 günlük döyüşlərin nəticəsində Hadrut alınanda yaşayıb. Sonra çoxsaylı kəndlərin azad olunmasında əlindən gələni edib. Oktyabrın 17-də Füzuli alınanda cəsur komandirin fərəhdən uçmağa qanadı olmayıb. Ardınca Zəngilan şəhərinin alınması barədə şəxsən Ali Baş Komandana məruzə edənlərdən olub.

Oktyabrın 21-i Anar Əliyevin son döyüş günü oldu. Onun komandirlik etdiyi heyət həmin gün Füzulinin Gecəgözü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini azad etdi. Ardınca tapşırıq gəldi ki, Azərbaycan Ordusunun Şuşaya daxil olmasında böyük rol oynayacaq strateji yüksəkliklər, xüsusilə, "772 metr" yüksəkliyi, Xocavəndin Tuğ kəndi nəyin bahasına olursa-olsun, azad edilməlidir. O, dərhal önə çıxaraq, döyüşçülərinə "İrəli!" əmri verdi. Silahdaşlarının dediyinə görə, qəfildən öncə qolundan, sonra gözündən vuruldu. Ona ilk yardım edən tibb xidməti leytenantı Adil Əfəndiyevlə birlikdə yenidən erməni hədəfinə tuş gəldi və yaxınlıqlarında əl qumbarasının partlayışı ilə hər ikisi şəhadətə yüksəldi.

Polkovnik-leytenant Anar Əliyevin nəşi bir zamanlar məcburi köçkün kimi yaşadığı Tərtərin Bəyimsərov kəndində son vida mərasimindən sonra Bakıya gətirilərək, böyük ehtiramla İkinci Fəxri xiyabanda torpağa tapşırılıb. Beləcə, ömrünü 40 yaşında şərəflə başa vuran Anar Vaqif oğlu Əliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Gəncənin Gülüstan qəsəbəsində müvəqqəti fəaliyyət göstərən Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbinə onun adı verilib.

Həyat yoldaşı Vüsalə Əliyevanın hərbçimiz barədə dedikləri:

- Fəxr edirəm ki, ən çətin yüksəkliklərin azad olunmasına Anar özü öndə gedərək rəhbərlik edib. Son nəfəsində belə döyüşçülərinə tapşırıq verib ki, yüksəkliyi düşmənə verməyin. Qəlbində Vətənə böyük sevgisi olan zabit idi. Mən, onun ailəsi qohumları, xidmət yoldaşları, dostları onunla qürur duyuruq. Bu gün kimlərsə övladları üçün bahalı maşın, pullar, ev qoyub gedir. Amma Anar öz övladlarına, hətta gələcək nəslinə milyonlarla pulun ala bilməyəcəyi, bitməyən sərvət – qəhrəmanlıq adı qoyub gedib. Odur ki, hər zaman başımız ucadır.

***Əli NƏCƏFXANLI***
***XQ***

